**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "City Bus" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, büdcə vəsaitləri hesabına alınmış sərnişin avtonəqliyyat vasitələrinin səmərəli və mütəşəkkil istifadəsini təmin etmək, Bakı şəhərində ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə göstərilən xidmətlərin keyfiyyətini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyəti və "City Bus" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılsın.

2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki:

2.1. qanunvericilikdə nəzərdə tutulmuş qaydada bu qərarın 1-ci hissəsi ilə yaradılmış Məhdud Məsuliyyətli cəmiyyətlərinin idarəetmə orqanlarının yaradılmasını təmin etsin;

2.2. Məhdud Məsuliyyətli cəmiyyətlərinin fəaliyyətinin səmərəliliyinin təmin edilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Məhdud Məsuliyyətli cəmiyyətlərinin nizamnamələrinin təsdiq edilməsi və dövlət qeydiyyatına alınması üçün zəruri, tədbirlərin həyata keçirilməsini təmin etsin.

4. Bakı Şəhər İcra Hakimiyyəti Məhdud Məsuliyyətli cəmiyyətlərinə məxsus taksi minik avtomobillərinin və avtobusların saxlanılması, onlara ~~*təminatlı*~~ texniki xidmətin göstərilməsi məqsədi ilə avtonəqliyyat parkları (qarajları) üçün torpaq sahələrinin ayrılmasını 1 ay müddətində təmin etsin. [1]

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Baş nazirinin müavini Abid Şərifov**

Bakı şəhəri, 30 mart 2015-ci il
89

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 15 aprel 2016-cı il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 may 2016-cı il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 811**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 15 aprel 2016-cı il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 may 2016-cı il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 811**) ilə 4-cü hissəsindən "**təminatlı**" sözü çıxarılmışdır.